№ 01-02 (833) 31 yanvar 2026-cı il ● Qəzet 1991-ci ildən nəşr olunur ● www.health.gov.az; ● www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı qəbul edildi

2



Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb

2



Özəl tibb müəssisələrində onkoloji yardım göstərilməsi məsələsi müzakirə olunub

4

## Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri çərçivəsində Davosda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus ilə görüşü olub.

2



## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda tibb müəssisəsini ziyarət edib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman dövlətinə səfəri çərçivəsində ölkənin paytaxtı Maskat şəhərində Sultan Qabus adına Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib.

Səh. 3

## Azərbaycan ilə Türkiyə arasında yol qəzaları üzrə tibbi əməkdaşlıq imkanları müzakirə edilib



Səh. 4

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az

## Bakıda Qafqazda ilk ürək transplantasiyasına həsr olunmuş dəyirmi masa keçirilib



Bakıda «Qafqazda ilk ürək transplantasiyası: Azərbaycan səhiyyəsinin tarixi nailiyyəti və gələcək perspektivlər» mövzusunda elmi-praktiki dəyirmi masa keçirilib.

5

# Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı qəbul edildi

*Tədbirlər Planında Səhiyyə Nazirliyinə də tapşırıqlar verilib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 - 2028-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, qəbul olunan Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edilib.

Sənəddə bildirilir ki, dayanıqlı inkişafın hərəkətverici qüvvəsi kimi qadınların və kişilərin ölkənin sosial-iqtisadi inkişafına bərabər şəkildə töhfə vermək imkanlarının genişləndirilməsi onların hüquq və azadlıqlarının reallaşması üçün əlverişli şərait yaradılmasını şərtləndirir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan qısa müddət sonra ölkədə gender bərabərliyinin təmin olunması istiqamətində əsaslı addımlar atılmış, normativ hüquqi baza formalaşdırılmış və institusional mexanizmlər yaradılmışdır. Gender amilinin ümumi siyasətə daxil edilməsi üzrə səylər qadınların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində təmsil olunmalarına imkan vermişdir.

Qeyd olunur ki, dünyada bu istiqamətdə müsbət dəyişikliklərlə yanaşı, ailədə və ictimai həyatda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə səbəb olan bir sıra amillər, xüsusilə mənfi stereotiplər, gender əsaslı zorakılıq, erkən evlilik halları, təhsil, əmək, reproduktiv sağlamlıq kimi hüquqların reallaşdırılması ilə bağlı problemlər hələ də əksər dünya ölkələrində ciddi problem olaraq qalmaqdadır.

Azərbaycanda gender bərabərliyinin təmin edilməsinə mənfi təsir göstərən amillərin (adət-ənənələr, stereotiplər və s.) və həmin amillərdən qaynaqlanan neqativ halların (uşaq doğulanadək cins seçimi (selektiv abortlar), gender əsaslı zorakılıq, erkən evlilik, təhsildən yayınma, iqtisadi asılılıq) aradan qaldırılması ilə bağlı fəaliyyətin və normativ hüquqi aktların təkmilləşdirilməsi davam etdirilir.

Görülən işlərlə yanaşı, ölkədə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması məqsədilə gender bərabərliyinin təmin olunması ilə bağlı növbəti mərhələdə də normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsinə, qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması üzrə tədbirlərin gücləndirilməsinə, cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin formalaşdırılmasına, müvafiq sahədə təhlil, monitorinq və tədqiqatlar aparılmasına ehtiyac vardır.

Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində nail olunacaq hədəf göstəriciləri arasında sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji, sosial və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi də yer alır. Bu məsələ həm də Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin prioritet istiqamətlərindən biridir.

Digər prioritet istiqamət olan iqlim dəyişiklikləri ilə mübarizə sahəsində gender bərabərliyinin nəzərə alınması iqlim dəyişikliklərinin sağlamlıq və təhlükəsizlik baxımından cinslərə fərqli və qeyri-mütənasib təsirləri olduğuna görə bu mübarizədə gender aspektlərinə diqqət yetirilməsinin zəruriliyini vurğulayır.

Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında Səhiyyə Nazirliyinə də müəyyən tapşırıqlar verilib.

Belə ki, Planın «Gender bərabərliyinin təmin olunması sahəsində hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi» istiqamətinin iki bəndində - «Dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət, ictimai əsaslarla fəaliyyət göstərən mərkəzi və yerli səviyyəli Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının yaradılması» və «Gender məsələləri üzrə ictimai əsaslarla fəaliyyət göstərən məsul şəxslərin işinin təkmilləşdirilməsi üçün tədbirlər görülməsi» bəndlərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əsas icraçı, Səhiyyə Nazirliyi isə digər icraçılardan biridir.

Tədbirlər Planının «Sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi» istiqaməti üzrə «Sosial cəhətdən həssas qrupdan olan qadınlar arasında ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxış barədə maarifləndirmə işinin aparılması» və «Sosial cəhətdən həssas qruplardan olan qadınların psixoloji yardıma əlçatanlığının təmin edilməsi» bəndlərinin əsas icraçısı olaraq Səhiyyə Nazirliyi müəyyən edilib. Bu bəndlərin digər icraçılardan biri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyidir.

# Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri çərçivəsində Davosda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlət başçısı ilə Tedros Adhanom Gebreyesusun əvvəlki görüşləri məmnunluqla xatırlanıb.

Azərbaycan ilə ÜST arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb, ölkəmizin təşkilatın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələrə dəstəyi qeyd edilib. Bu xüsusda COVID-19 pandemiyası zamanı Azərbaycanın bir sıra ölkələrə könüllü maliyyə yardımı göstərməsi xüsusi olaraq vurğulanıb.

Görüşdə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin ödənilməsi müddətinin uzadılması ilə bağlı iki Qərar imzalayıb.**

Birinci sənəd «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Qərardır. Bu dəyişikliyə görə, COVID-19-la mübarizə üzrə çalışanların maaşlarına əlavənin müddəti 2026-cı il aprelin 1-dək uzadılıb.

Qəbul edilmiş ikinci sənədə əsasən, «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilib. Yeni qərara görə, adı çəkilən kateqoriyadan olan tibb işçilərinin əməkhaqlarına əlavələr də 2026-cı il aprelin 1-dək ödəniləcək.



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421; № 9, maddə 858) ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə əlavə - «Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri»nin 2.1-ci bəndinə aşağıdakı məzmunda 2.1.634-2.1.636-cı yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.1.634. | 95.48. | Eşitməyə köməkçi vasitənin uyğunlaşdırılması – 1 seans (koxlear protezin illik istifadə tamamlandıqdan sonra 4 dəfə nitq prosessorunun tənzimlənməsi xidməti (fitting), konsultasiya daxil) | *TS daxildir | 300 |
| 2.1.635. | 95.49. | Eşitməyə aid digər qeyri-operativ prosedurlar (koxlear protez cihazının xarici komponentləri) koxlear protez cihazı istifadəçisinin hazırda istifadə etdiyi səs (nitq) prosessorunun (minimum 5 (beş) il müddətində istifadə edilmiş olması şərtilə) bir üst modeli ilə əvəzləşdirilməsi (konsultasiya daxil) | *TS daxildir | 15500 |
| 2.1.636. | Tətbiq edilmir | Eşitməyə aid digər qeyri-operativ prosedurlar (koxlear protez cihazının xarici komponentləri) koxlear protez cihazı istifadəçisinin hazırda istifadə etdiyi səs (nitq) prosessorunun istifadəyə yararsız olduğu təqdirdə eyni model səs (nitq) prosessoru ilə (komplektləşdiricilər xaric) əvəzləşdirilməsi (konsultasiya daxil), (istehsalçı tərəfindən zəmanət şərtlərində nəzərdə tutulmadığı hallarda, minimum 1 (bir) il müddətində istifadə edilmiş olması şərtilə) | *TS daxildir | 5500 |

**Əli Əsədov**

**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 21 yanvar 2026-cı il*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda tibb müəssisəsini ziyarət edib





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman dövlətinə səfəri çərçivəsində ölkənin paytaxtı Maskat şəhərində Sultan Qabus adına Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı Mərkəzdə tibb şəhərciyinin icraçı direktoru xanım Siham Sinaniyya qarşılayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Mərkəzin müxtəlif bölmələrini gəzib, burada xəstəliyin müalicəsində istifadə olunan müasir tibbi avadanlıqlara baxıb.

Sonda burada müalicə alan xəstələr üçün Leyla Əliyevanın adından tibb mərkəzinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, bu kompleks mərhum Sultan Qabus bin Səidin göstərişi ilə xərçəng xəstələrinə tibbi xidmət göstərmək məqsədilə yaradılıb. Tibb ocağı 2023-cü ildə «Joint Commission International» (JCI) tərəfindən beynəlxalq akkreditasiya sertifikatı alıb. Kompleks Omanda tibb ocaqları arasında qısa müddətdə bu cür beynəlxalq akkreditasiya əldə edən ilk dövlət səhiyyə müəssisəsidir.

# Nazirlər Kabinetinin səhiyyə ilə bağlı bəzi qərarlarında dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Azərbaycan Respublikasının Əmək Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında» və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Sənədə əsasən, Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı ilə təsdiq edilmiş «Lisenziyalar və icazələr» portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər» adlı 2 nömrəli əlavəyə, Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası»na, Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası»na, Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 456 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi» publik hüquqi şəxsin Nizamnaməsi»nə, Nazirlər Kabinetinin 2025-ci il 8 aprel tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş «Aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması Qaydaları»na səhiyyə ilə bağlı dəyişikliklər olunub.

Sənədlə həmçinin Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 445 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası»nda da dəyişikliklər edilib.

# Özəl tibb müəssisələrində onkoloji yardım göstərilməsi məsələsi müzakirə olunub

**Milli Məclisin Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Əhliman Əmiraslanov gündəliyə 2025-ci ilin payız sessiyası ərzində Səhiyyə komitəsində görülmüş işlərin hesabatının, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsinin, «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.

Məlumat verilib ki, 2025-ci ilin payız sessiyası ərzində komitənin 15 iclası keçirilib, ümumilikdə 20 məsələ müzakirə olunub.

Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsi barədə məlumat verən Əhliman Əmiraslanov qeyd edib ki, gələn sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələri müzakirə olunacaq və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

Məsələlərlə bağlı müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri İlham Məmmədov, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva çıxış edərək fikirlərini söyləyiblər, təkliflərini bildiriblər.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı Günay Əfəndiyeva I Türkoloji Qurultayın 100 illiyi çərçivəsində tibb sahəsində əldə olunan nailiyyətlərin beynəlxalq səviyyədə müzakirəsini təklif edib. Onun sözlərinə görə, Türkoloji Qurultay təkcə mədəniyyət, dil və tarix məsələləri ilə məhdudlaşmır, eyni zamanda, Türk dünyasında sosial siyasət, əhalinin rifahı və insan kapitalının inkişafına təsir göstərən çağırışların müzakirə olunduğu nüfuzlu elmi-ictimai platformadır. 100 il əvvəl Qurultayın təşkili prosesində tibb və səhiyyə mütəxəssislərinin fəal iştirakına diqqəti çəkən Günay Əfəndiyeva deyib: «Bu il bu tarixi yubiley çərçivəsində Milli Məclisin Səhiyyə komitəsi, TÜRKPA, Milli Məclisin Mədəniyyət komitəsi, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin birgə əməkdaşlığı ilə genişmiqyaslı ictimai dinləmə və ya tədbir təşkil oluna bilər».

Deputat son bir əsrdə tibb sahəsində əldə olunan nailiyyətlərə kompleks baxış üçün türk ölkələrinin müvafiq strukturlarının nümayəndələrinin iştirakı ilə beynəlxalq tədbirlərin gerçəkləşdirilə biləcəyini diqqətə çatdırıb.

İclasda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul hesab edilib, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

Daha sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. O bildirib ki, qanun layihələrinə edilən dəyişikliklər onkoloji yardımın göstərilməsi sahəsində mövcud məhdudiyyətlərin aradan qaldırılmasına, bu xidmətlərin «Lisensiyalar və icazələr haqqında» Qanunun tələblərinə əsasən onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsini nəzərdə tutur. Dəyişikliklər onkoloji xəstələrin həkim və tibb müəssisəsi seçmək hüququnun genişləndirilməsinə və tibbi xidmətlərə çıxış imkanlarının artırılmasına xidmət edəcək.

AZƏRTAC-ın xəbər verdiyinə görə, iclasda qeyd olunub ki, hazırda «Onkoloji yardım haqqında» Qanunun tələblərinə əsasən, onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun 24-cü maddəsi isə pasiyentin öz razılığı ilə həkimi, o cümlədən müalicə həkimini və müalicə-profilaktika müəssisəsini seçmək hüququnu təsbit edir. Yəni pasiyent öz iradəsi ilə dövlət və ya özəl tibb müəssisəsində müalicə almaq hüququna malikdir. Beləliklə, iki qanun arasında uyğunsuzluq var. Ölkə ərazisində onkoloji yardım xidməti ilə məşğul ola biləcək, müasir avadanlıqlarla təchiz edilmiş və ixtisaslı həkimlərin fəaliyyət göstərdiyi özəl tibb müəssisələrinin mövcudluğu da nəzərə alınaraq, sözügedən problemin aradan qaldırılması məqsədilə «Lisenziyalar və icazələr haqqında» Qanunun tələblərinə əsasən özəl tibb müəssisələri tərəfindən onkoloji yardımın həyata keçirilməsi təklif edilir.

Layihənin qəbul olunması nəticəsində ixtisaslaşdırılmış özəl tibb müəssisələri ilə yanaşı, «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə əsasən yalnız onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən xidmət həyata keçiriləcək. Bu isə vətəndaşların öz iradəsinə əsasən, istənilən tibb müəssisəsində tibbi xidmət almasına səbəb olmaqla Azərbaycan Respublikasının vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin öz mülahizələrinə əsasən, müstəqil surətdə öz müalicə həkimlərini seçmək və müvafiq tibb müəssisəsində müalicə almaq hüququnu təmin edəcək.

Müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov və üzvü Pərvanə Vəliyeva çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, təkliflərini irəli sürüblər.

İclasın sonunda birinci oxunuşda olan qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Azərbaycan ilə Türkiyə arasında yol qəzaları üzrə tibbi əməkdaşlıq imkanları müzakirə edilib



**Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türkiyənin Ufuk Universiteti (Ankara) Yol Qəzalarına Yardım Fondunun Prezidenti professor Recai Pabuçcunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Ufuk Universitetinin rektoru, professor Əhməd Hakan Haliloğlu da iştirak edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan - Türkiyə qardaşlıq əlaqələri çərçivəsində səhiyyə və beynəlxalq əməkdaşlıq imkanları, elmi tədqiqatlar və kadr hazırlığı istiqamətlərində təcrübə mübadiləsi, tibbi reabilitasiya, yol-nəqliyyat hadisələri nəticəsində xəsarət alan şəxslərə göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, reabilitasiya və profilaktika sahəsində müasir yanaşmaların tətbiqi, tibb tələbələri və rezidentlər üçün təcrübə mübadiləsi proqramlarının təşkili, reproduktiv tibb sahəsində birgə tədqiqatların, eləcə də bu istiqamətlərdə müştərək layihələrin həyata keçirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Görüşdə qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb.

# Səhiyyə Nazirliyində beynəlxalq əczaçılıq şirkətinin nümayəndə heyəti ilə görüş olub

**Səhiyyə Nazirliyində «Pfizer» beynəlxalq əczaçılıq şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan bölgəsini əhatə edən regional nümayəndə heyəti ilə görüş keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, görüşdə səhiyyə naziri Teymur Musayev, eləcə də nazirliyin aidiyyəti struktur bölmələrinin mütəxəssisləri iştirak ediblər.

Görüş zamanı səhiyyə sahəsində mümkün əməkdaşlıq istiqamətləri, o cümlədən pnevmokok infeksiyasının profilaktikası, prioritet əhali qruplarında pnevmokok vaksinasiyasının əhatə dairəsinin genişləndirilməsi, mövcud epidemioloji göstəricilər və xəstəlik yükü, eləcə də onkoloji xəstəliklərdən əziyyət çəkən pasiyentlərin müalicə keyfiyyətinin yüksəldilməsi istiqamətində müzakirələr aparılıb.

Teymur Musayev infeksion xəstəliklərin profilaktikasının və sosial əhəmiyyətli xəstəliklərin effektiv müalicəsinin milli səhiyyə sistemləri üçün prioritet istiqamətlərdən olduğunu vurğulayıb. Bildirib ki, pnevmokok infeksiyası uşaqlar və yaşlı əhali qrupları arasında qarşısı alına bilinən xəstəliklər sırasında mühüm yer tutur, onkoloji xəstəliklər isə regionda ölüm hallarının əsas səbəblərindən biri olaraq qalır. Bu kontekstdə tərəflər pasiyentlərin müasir innovativ müalicə üsullarına çıxış imkanlarının genişləndirilməsinin onların həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb və gələcəkdə əməkdaşlıq imkanlarının dəyərləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



**Azərbaycan xalqının tarixi yaddaşına istiqlaliyyətə gedən yol, milli qürur və mübarizə günü kimi əbədi həkk olunan 20 Yanvar hadisələrinin 36-cı ildönümü ilə əlaqədar olaraq Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Şəhidlər xiyabanını ziyarət edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, ziyarətdə müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi dərin hörmət və minnətdarlıqla yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

Yanvarın 20-si qəhrəman Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Bu tarix milli oyanış prosesini sürətləndirib, Azərbaycan dövlətinin müstəqilliyinin bərpasında mühüm rol oynayıb. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazıblar. 20 Yanvar Azərbaycan xalqının həyatında dönüş nöqtəsi olub.

1990-cı ildən başlanan ağır, çətin, ancaq şərəfli yol Qarabağ Zəfəri ilə ən şanlı zirvəyə çatıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Böyük Qələbə xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılıb.

20 Yanvar şəhidlərinin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

## Səhiyyə Nazirliyində dövlət təltifləri təqdim edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) 90 illik yubileyi münasibətilə institutun bir qrup əməkdaşı Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə «Tərəqqi» medalı ilə təltif olunublar.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirlikdə dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib. «Tərəqqi» medalları mükafatlandırılanlara səhiyyə naziri Teymur Musayev tərəfindən təqdim edilib.

Təqdimetmə mərasimində çıxış edən nazir bildirib ki, bu mükafatlar Prezident İlham Əliyevin səhiyyə sisteminə və onun işçilərinə göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir.

Nazir qeyd edib ki, 1935-ci ildən fəaliyyət göstərən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu milli səhiyyəmizin formalaşmasında mühüm yer tutur.

Təltif olunan əməkdaşlar göstərilən yüksək etimada və dəyərə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar bu mükafatları institut kollektivinin birgə əməyinə yüksək qiymətin təzahürü kimi qəbul etdiklərini söyləyib, gələcəkdə də Azərbaycan səhiyyəsinin inkişafına töhfə verməyə hazır olduqlarını vurğulayıblar.

## Bakıda Qafqazda ilk ürək transplantasiyasına həsr olunmuş dəyirmi masa keçirilib

**Bakıda «Qafqazda ilk ürək transplantasiyası: Azərbaycan səhiyyəsinin tarixi nailiyyəti və gələcək perspektivlər» mövzusunda elmi-praktiki dəyirmi masa keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin fəxri sədri professor Kamran Musayev Qafqazda ilk ürək transplantasiyasının Azərbaycan səhiyyəsinin tarixində mühüm mərhələ olduğunu deyib, ölkəmizin bu sahədə regional liderliyini bir daha təsdiqlədiyini vurğulayıb. Bildirib ki, ötən il Azərbaycan səhiyyə tarixi üçün unudulmaz hadisələrlə yadda qalıb. Onun sözlərinə görə, məhz 2025-ci ildə ölkəmizdə ilk dəfə beyin ölümü qeydə alınmış donordan orqan transplantasiyası həyata keçirilib.

«Sevindirici haldır ki, biz ürək cərrahları olaraq, bu tarixi prosesə qoşulduq və 2025-ci ildə iki uğurlu ürək transplantasiyası icra etdik. Bu əməliyyat Azərbaycanın Qafqaz regionunda donor orqandan ürək transplantasiyası sahəsində lider mövqeyini təsdiqlədi və region üçün bir ilk kimi tarixə düşdü», - deyə professor vurğulayıb. O qeyd edib ki, canlı donordan transplantasiya ölkəmizdə əvvəllər də icra olunurdu, lakin ürək kimi tək orqanların transplantasiyası yalnız beyin ölümü baş vermiş donorlardan həyata keçirilə bilər: «Bu proses mürəkkəb və kompleks olub, həm qanunvericilik, həm sosial-psixoloji, həm də tibbi və cərrahi mərhələləri əhatə edir».



Kamran Musayev bildirib ki, əldə olunan bu nailiyyətlərin təməlində Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş səhiyyə strategiyası dayanır: «Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində bu gün Azərbaycanda orqan transplantasiyası kimi mürəkkəb və yüksək texnologiya tələb edən əməliyyatlar uğurla icra olunur».

«2025-ci ildə biz azərbaycanlı cərrahlar olaraq iki xəstəyə ürək transplantasiyası icra etdik. Bu əməliyyatlar həm ölkəmizdə, həm də Qafqaz regionunda ilk oldu və tarixə düşdü. Bu hadisə yalnız bir klinikanın deyil, bütün Azərbaycan səhiyyəsinin tarixi nailiyyətidir», - deyə Kamran Musayev vurğulayıb.

Professor əlavə edib ki, transplantasiya əməliyyatları davamlı proqram çərçivəsində planlaşdırılır və hazırda Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzində rəsmi qeydiyyatda olan çoxsaylı xəstələr mövcuddur. Kamran Musayev bütün vətəndaşları donor olmağa dəvət edib: «Gözləyən xəstələrin həyatı donorların mövcudluğuna bağlıdır. Media nümayəndələrinin dəstəyindən istifadə edərək donorluğu artırmağa çağırıram».

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov çıxışında qeyd edib ki, orqan transplantasiyasının uğurla həyata keçirilməsi üçün beynəlxalq tələblərə cavab verən qanunvericilik bazası və effektiv icra mexanizmlərinin yaradılması həlledici əhəmiyyət daşıyır. O qeyd edib ki, 2020-ci ildə beynəlxalq transplantasiya standartlarına uyğun yeni qanun layihəsi hazırlanaraq qəbul olunub və həmin ilin oktyabrında Prezident İlham Əliyev tərəfindən təsdiqləndikdən sonra bu sahədə real icra mexanizmlərinin yaradılmasına başlanılıb. Onun sözlərinə görə, Səhiyyə Nazirliyinin operativ fəaliyyəti nəticəsində transplantasiyanın həyata keçirilməsi üçün zəruri təşkilati mexanizmlər qısa müddətdə formalaşdırılıb.

«Bu prosesdə Koordinasiya Mərkəzinin yaradılması xüsusi rol oynayıb. Nəticədə, bu gün ölkəmizdə ürək transplantasiyası kimi yüksək peşəkarlıq və texnoloji imkanlar tələb edən əməliyyatları icra edə bilən peşəkar tibbi komanda mövcuddur», - deyə Əhliman Əmiraslanov vurğulayıb.

Komitə sədri bildirib ki, indiyədək iki ürək transplantasiyasının uğurla icra edilməsi mühüm nailiyyətdir, lakin bu sahədə fəaliyyətin daha da genişləndirilməsi vacibdir. Onun sözlərinə görə, transplantasiya sisteminin dayanıqlı inkişafı üçün tibbi heyətin, koordinasiya strukturlarının və aidiyyəti qurumların birgə fəaliyyəti əsas şərtdir.

Əhliman Əmiraslanov bildirib ki, donor amili orqan transplantasiyasının əsas və həlledici şərtidir.

*(Davamı səhifə 6-da)*

*(Əvvəli səhifə 5-də)*

Onun sözlərinə görə, Azərbaycanda ilk ürək transplantasiyalarının uğurla həyata keçirilməsindən sonra donorluğa maraq əhəmiyyətli dərəcədə artıb, orqan donoru olmaq istəyənlərin sayında artım müşahidə olunur. «Sevindirici haldır ki, bu uğurlu əməliyyatlardan sonra donor olmaq istəyənlərin sayı çoxalıb. Hətta bir sıra ictimai xadimlər, diplomatlar və ziyalılar donor olmaq niyyətlərini rəsmi sənədlərlə təsdiqləyiblər», - deyə Əhliman Əmiraslanov qeyd edib.

Komitə sədri vurğulayıb ki, cəmiyyət bu uğurları gördükcə orqan donorluğuna münasibət də müsbət istiqamətdə dəyişir. Onun fikrincə, donorluğun təşviqi yalnız səhiyyə sisteminin deyil, bütün cəmiyyətin üzərinə düşən ümumi vəzifədir.

Akademik əlavə edib ki, deputatlar, ictimai xadimlər və kütləvi informasiya vasitələri bu sahədə maarifləndirmə işini gücləndirməli, əldə olunan tibbi nailiyyətlərin düzgün şəkildə ictimaiyyətə çatdırılmasına xüsusi diqqət yetirməlidirlər.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxışında diqqətə çatdırıb ki, Azərbaycanda orqan donorluğu və transplantasiyası sahəsində vahid və şəffaf idarəetmə sistemi formalaşdırılıb. Nazir müavini qeyd edib ki, 2022-ci ildə Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi yaradılıb. Mərkəzin fəaliyyəti nəticəsində ölkədə transplantasiyaların aparılması, donor və resipiyentlərin qeydiyyatı, gözləmə siyahılarının formalaşdırılması və əməliyyatların monitorinqi sistemləşdirilib. «Mərkəz yaradılanadək transplantasiyalar sporadik xarakter daşıyırdı və vahid statistika mövcud deyildi. Hazırda isə bütün proseslər şəffaf mexanizmlər əsasında həyata keçirilir, donorların könüllülüyü xüsusi mexanizmlərlə yoxlanılır, etik məsələlərə ciddi nəzarət olunur», - deyə Nadir Zeynalov bildirib.

O əlavə edib ki, transplantasiya sisteminin rəqəmsallaşdırılması istiqamətində işlər mərhələli şəkildə davam etdirilir.

Nadir Zeynalov vurğulayıb ki, ölkəmizdə ürək transplantasiyasının icrası təsadüfi hadisə deyil, illər ərzində mərhələli və məqsədyönlü şəkildə həyata keçirilən sistemli islahatların nəticəsidir. Nazir müavini bildirib ki, 2008-ci ildən etibarən Azərbaycanda orqan transplantasiyası canlı donorlardan icra olunub və bu sahədə mühüm təcrübə formalaşıb: «Meyit donordan orqan transplantasiyasına keçid isə yalnız hüquqi, institusional və tibbi baza formalaşdırıldıqdan sonra mümkün olub».

Onun sözlərinə görə, 2020-ci ildə «Orqan transplantasiyası haqqında» yeni qanunun qəbul edilməsi bu sahədə fəaliyyətin

# Bakıda Qafqazda ilk ürək transplantasiyasına həsr olunmuş dəyirmi masa keçirilib

hüquqi əsasını yaradıb və sonrakı bütün mərhələlərin başlanğıc nöqtəsi olub. Azərbaycanda ilk meyit donordan orqan transplantasiyasının həyata keçirilməsi transplantasiya sisteminin yeni mərhələyə keçdiyini göstərir.




Nazir müavini bildirib ki, meyit donordan orqan köçürülməsinin əsas şərti olan beyin ölümü diaqnozunun qoyulması sahəsində uzun müddət tərəddüdlər mövcud olub. Bu səbəbdən Səhiyyə Nazirliyi tərəfindən geniş maarifləndirmə tədbirləri həyata keçirilib, metodiki tövsiyələr hazırlanıb, həkimlər üçün təlim və seminarlar təşkil olunub.

«2024-cü ildən etibarən ölkəmizdə beyin ölümü diaqnozları qoyulmağa başlanılıb. 2025-ci ildə isə ilk dəfə olaraq ailənin razılığı ilə meyit donordan orqan transplantasiyası həyata keçirilib. Sonrakı dövrdə bir neçə belə transplantasiya baş verib və bu, mexanizmin artıq işlədiyini göstərir», - deyə Nadir Zeynalov vurğulayıb.

Nazir müavini qeyd edib ki, bu proses həm cəmiyyət tərəfindən qəbul olunmağa başlayıb, həm də həkimlərin və transplantasiya komandalarının texniki və peşəkar hazırlığının kifayət qədər yüksək olduğunu sübut edib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova səhiyyənin yeni maliyyələşmə mexanizmi haqqında danışıb. Bildirib ki, icbari sığortanın Xidmətlər Zərfinə daxil olan tibbi xidmət və prosedurların sayı daim artırılır. O cümlədən, transplantasiya əməliyyatları da Xidmətlər Zərfinə daxil edilib.

Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin sədri Yeganə Abbasova qeyd edib ki, Qafqazda ilk ürək transplantasiyası əməliyyatının Azərbaycanda icra olunması uzun illər ərzində mərhələli şəkildə aparılan sistemli islahatların nəticəsidir. Bildirib ki, Koordinasiya Mərkəzinin yaradılması üçün ilk növbədə hüquqi baza formalaşdırılıb: «Bu istiqamətdə Milli Məclisin Səhiyyə Komitəsi və Səhiyyə Nazirliyi tərəfindən zəruri normativ sənədlər hazırlanıb və qəbul edilib».

Yeganə Abbasovanın sözlərinə görə, 2022-ci ildə Vahid İnformasiya Bazası haqqında Əsasnamə təsdiq olunub və bundan sonra ölkədə orqan transplantasiyası sahəsində vahid rəqəmsal sistem yaradılmağa başlayıb: «Bu sistemə reanimasiya şöbələrində süni tənəffüs aparatları olan bütün xəstəxanalar, transplantasiya əməliyyatları icra edən tibb müəssisələri və orqan transplantasiyasını gözləyən pasiyentlərin siyahıları daxil edilib».

Koordinasiya Mərkəzinin sədri qeyd edib ki, həmin sistem vasitəsilə böyrək, qaraciyər, ürək, buynuz qişa və sümük iliyi transplantasiyasını gözləyən şəxslərin növbəliliyi şəffaf və mərkəzləşdirilmiş qaydada aparılır.

Yeganə Abbasova Azərbaycanda meyit donordan orqan transplantasiyasının başlanması donorluğa ictimai marağın əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Onun sözlərinə görə, beyin ölümü diaqnozunun qoyulması üzrə protokol hazırlanıb və 2023-cü ildən etibarən Həkimləri Təkmilləşdirmə İnstitutunda anesteziologiya və reanimatologiya ixtisasları üzrə tədris proqramına daxil edilib. Bu sahədə həkimlər üçün təlimlər və geniş maarifləndirmə tədbirləri həyata keçirilib.

Mərkəzin sədri qeyd edib ki, maarifləndirmə işlərində Təhsil Nazirliyi, ali təhsil müəssisələri, TƏBİB və kütləvi informasiya vasitələri fəal iştirak edib. 4 avqust 2023-cü ildən transplantasiya əməliyyatlarının icbari tibbi sığorta zərfinə daxil edilməsi isə bu sahədə mühüm dönüş nöqtəsi olub. «Koordinasiya Mərkəzi yaradılarkən donor kimi qeydiyyatdan keçənlərin sayı cəmi 50 nəfər idi. İlk meyit donordan orqan transplantasiyasından sonra bu rəqəm 1200-ü keçib. Bu, Azərbaycan cəmiyyətinin humanist dəyərlərə sadiqliyinin göstəricisidir», - deyə Yeganə Abbasova vurğulayıb.

O bildirib ki, hazırda Azərbaycan üzrə minlərlə xəstə donor orqanı gözləyir və bu sırada 4 642 Azərbaycan vətəndaşı da var. Onların çoxu canlı donor tapmadıqları üçün rəsmi gözləmə siyahısında yer alır.

«Donor olmaq üçün bir sıra şərtlər mövcuddur. Meyit donorlarında beyin ölümü təsdiqlənməli, orqanlar sağlam və transplantasiya üçün uyğun olmalıdır. Canlı donor yalnız bəzi orqanlar, məsələn, böyrək və qaraciyər verə bilər. Bu, hər kəs üçün mümkün olan bir şərəfdir, amma hər kəsə qismət olmur», - deyə mərkəzin rəhbəri vurğulayıb.

O, həmçinin qeyd edib ki, vahid informasiya sistemi xəstələr və donorlar arasında uyğunluğu avtomatik müəyyən edir. «Məsələn, donor çıxarsa, sistem xəstələr arasında uyğunluğu genetik və klinik göstəricilər əsasında seçir. Bu proses heç kim tərəfindən əvvəlcədən proqnozlaşdırıla bilməz», - deyə o bildirib.

Yeganə Abbasova orqan donorluğu və transplantasiya sahəsində maarifləndirmə işlərinin genişləndirildiyini, bunun yalnız Səhiyyə Nazirliyinin deyil, Elm və Təhsil Nazirliyi, eləcə də digər dövlət qurumlarının birgə təşəbbüsü olduğunu qeyd edib.

Qafqazda ilk dəfə ürək transplantasiyası əməliyyatının icra olunduğu Rəşad Məmmədəliyev əməliyyatdan sonra həyatındakı dəyişikliklər və gündəlik qayğıları barədə danışıb. O, əməliyyatdan əvvəl hərəkət etməkdə çətinlik çəkdiyini, nəfəs darlığı və yorğunluq yaşadığını bildirib. «Amma indi çox yaxşıyam. Əməliyyatdan dörd ay keçib, rahat gəzə və hərəkət edə bilirəm», - deyə Rəşad Məmmədəliyev bildirib.

Pasiyent gündəlik diqqət etdiyi məqamlar barədə də danışıb: «Dərmanlarımı qəbul edirəm. Bəzi dərmanlar ömürlükdür, bəziləri isə müəyyən müddət üçündür. Yeməyim normaldır, gündə üç dəfə qida qəbul edirəm. Hərəkətim əvvəlki kimi çətin deyil və qorxu yoxdur».

R.Məmmədəliyev əməliyyatın müddətindən də söz açıb: «Əməliyyat 5-6 saat davam etdi. Başqasının ürəyini daşımaq hissi mənim üçün çox məsuliyyətlidir, amma normal insan kimi yaşayıram. Donorun ailəsinə və əməliyyatda iştirak edən hər kəsə təşəkkür edirəm».

Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri Ramil Əliyev məlumat verib ki, son iki ildə Azərbaycanda 11 mindən çox açıq ürək əməliyyatı həyata keçirilib. O bildirib ki, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti qurulduğu gündən 20 il ərzində ölkə səhiyyəsinə böyük töhfələr verib: «Cəmiyyət həm səhiyyə sistemində sertifikasiya və standartlaşdırma işlərinə, həm də bilik-praktik fəaliyyətlərin birləşdirilməsinə çalışıb».

Onun sözlərinə görə, Azərbaycanda icbari tibbi sığortanın tətbiqi açıq ürək əməliyyatlarının sayının xeyli artmasına səbəb olub: «2005-ci ildə ölkədə cəmi bir açıq ürək əməliyyatı həyata keçirilib. Lakin son iki il ərzində icbari tibbi sığortanın tətbiqi ilə bu rəqəm əhəmiyyətli dərəcədə artıb».

Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, tibb elmləri doktoru Yasmin Rüstəmova vurğulayıb ki, Azərbaycanda ixtisaslaşmış ürək çatışmazlığı mərkəzlərinin fəaliyyətə başlamasına zərurət var. O, qeyd edib ki, bəzi xəstələrdə ürək transplantasiyasına ehtiyac yaransa da, əməliyyatın həyata keçirilməsi hər zaman risklər daşıyır: «Azərbaycanda ixtisaslaşmış ürək çatışmazlığı mərkəzləri fəaliyyət göstərsə, xəstələrə transplantasiya əməliyyatının texniki və klinik imkanları, habelə əməliyyatdan sonra sağ qalma perspektivi dəqiqliklə müəyyən edilə bilər».

Cəmiyyətin sədri əlavə edib ki, belə mərkəzlərin yaradılması diaqnostika və müalicə prosesini optimallaşdıraraq xəstələrin sağlamlıq nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.

Sonra «Qafqazda ilk ürək transplantasiyası: Azərbaycan səhiyyəsinin tarixi nailiyyəti və gələcək perspektivlər» mövzusunda elmi-praktiki dəyirmi masa çərçivəsində məruzələr dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, tədbir Səhiyyə Nazirliyi, Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin təşkilatçılığı ilə keçirilib.

# Azərbaycanda və Cənubi Qafqazda yenilik

*Təxirəsalınmaz pediatriya üçün PALS üzrə ilk VR-trenajor təqdim olunub*



**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) sifarişi əsasında Azərbaycanda həkimlərin PALS (Pediatrik Təkmil Həyata Dəstək Təlimi) protokolu üzrə təxirəsalınmaz yardım bacarıqlarının öyrənilməsi məqsədilə, tibbi təhsil alan tələbələr üçün VR (Virtual reallıq) simulyasiya trenajoru hazırlanıb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, proqram Azərbaycan Tibb Universitetinin (ATU) tələbələrinin həm müstəqil, həm də müvafiq kafedranın müəllim və klinisistləri ilə birgə tədrisi üçün nəzərdə tutulub. Simulyasiya yerli klinik reallıqlara və tədris proqramlarına uyğunlaşdırılıb, interfeys isə Azərbaycan dilində hazırlanıb.

ATU müəllimlərinin köməyi ilə hazırlanan bu proqramda tələbənin VR dəbilqəsini taxaraq virtual reanimasiya palatasına düşməsi, monitorların səsini eşitməsi, uşağın vəziyyətindəki dəyişiklikləri görməsi və pasiyentin həyatını xilas etmək üçün təcili qərarlar qəbul etməsi əks olunub. Alqoritm üzrə təlimatların məşq etdirilməsi, tənəffüs və nəbzin qiymətləndirilməsi, ürək-ağciyər reanimasiyasına başlanılması, dərmanların dozaların hesablanılması, defibrillasiya, komanda işi, nəticələr və vaxt göstəricilərinin qeydə alınması, daha sonra isə səhvlər və güclü tərəflər üzrə təhlil aparılması proqramlaşdırılıb.

Tibb müəssisələri, universitet və kolleclərdə təşkil oluna bilən bu proqramla məşğələlər üçün standart kompüter və VR-qarnitur kifayətdir. Sərfiyyat materialları və böyük simulyasiya mərkəzinə ehtiyac yoxdur. Bu da regionlarda miqyaslandırma və əlçatanlığı asanlaşdırır.

VR trenajorla daha ətraflı https:drive.google.com...11JmGD-lPAZwM9uXJP4OiIBK...view linkinə keçməklə tanış olmaq mümkündür.

# Səhiyyə Nazirliyinin nümayəndələri akademik kursda iştirak ediblər



**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda «Strateji araşdırmalar və dövlət müdafiəsi idarəetmə akademik kursu» keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, kursda zabit heyəti və dövlət qurumlarının nümayəndələri iştirak ediblər. Azərbaycanda səhiyyə və onun milli gücə təsiri, qan donorluğunun əhəmiyyəti və bu sahədə görülən işlər, qeyri-infeksion xəstəliklər yükü və tütün epidemiyası, sağlamlıq hüquqları və ictimai səhiyyə mövzularında mühazirələr dinlənilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev, Respublika Qan Bankının icraçı direktoru Elxan Nağıyev, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin İctimai sağlamlığın şöbəsinin müdiri Tofiq Musayev və baş hüquq məsləhətçisi Rüstəm Məmmədov tədbirdə geniş təqdimatla çıxış ediblər.

Təqdim olunan mövzular ətrafında fikir mübadiləsi aparılıb, beynəlxalq təcrübə müzakirə edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Əhali arasında sağlam həyat tərzi ilə bağlı sorğu aparılıb







**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən əhali arasında sağlamlığın qorunması, sağlam həyat tərzi davranışlarının və tibbi biliklərə dair məlumatlılığın öyrənilməsi məqsədilə sorğular keçirilib.**

«Reproduktiv yaşda olan qadınlar arasında ailə planlaşdırılması və kontrasepsiya haqqında maarifləndirmə üzrə məlumatlılıq səviyyəsinin öyrənilməsi» sorğusunda iştirakçılara arzuolunmaz hamiləliyin qarşısını almaq üçün müasir üsullar barədə suallar verilib. Arzuolunmaz hamiləliyin qarşısını almaq üçün 7 üsul (prezervativlər, kontraseptiv həblər, inyeksion kontraseptivlər, uşaqlıqdaxili spiral, sterilizasiya, yarımçıq cinsi akt, təqvim metodu) barədə respondentlərin məlumatlılıq səviyyəsi oyrənilib. Nəticələrin təhlili orta məlumatlılıq səviyyəsinin 82,4 faiz olduğunu göstərib.

İSİM tərəfindən aparılmış digər bir sorğunun məqsədi paytaxtda və regionlarda sağlam həyat tərzini təbliğ edən tədbirlər, əhali arasında fiziki aktivliyin əhəmiyyəti barədə məlumatlılıq səviyyəsinin öyrənilməsi olub. Sorğu nəticələrinə əsasən, məlumatlılıq səviyyəsi 75,6 faiz təşkil edib.

İmmunizasiyanın əhəmiyyəti barədə məlumatlılığı artırmaq və bu istiqamətdə əhalinin fikirlərini öyrənmək məqsədilə keçirilən sorğuda valideynlər iştirak ediblər. Onlara uşaqlarına profilaktik peyvəndlərin edilib-edilməməyi, peyvəndlər haqqında məlumatı haradan əldə etdikləri, peyvəndlənməyə




hər hansı maneə və ya problem olub-olmamağı, profilaktik peyvəndlərin uşağın sağlamlığı üçün nə dərəcədə vacibliyinə dair suallar, həmçinin müvafiq tövsiyələr verilib. Sorğuda iştirak edənlərin profilaktik immunlaşdırmadan məmnunluq səviyyəsi 89,2 faiz olub.

Növbəti sorğu əhali arasında sağlam həyat tərzi barədə məlumatlılıq səviyyəsinin öyrənilməsi, habelə sağlam davranışlara gündəlik həyat tərzində necə riayət edilməsi ilə bağlı məlumatları toplamaq məqsədilə aparılıb. Sorğu nəticəsində respondentlərə gündəlik həyat tərzi, zərərli vərdişlər, fiziki aktivlik, yuxu rejimi və s. üzrə suallar verilib, eyni zamanda, maarifləndirmə aparılıb, sağlam həyat tərzi seçməyin üstünlükləri izah olunub. Sorğu nəticəsində 296 respondent yüksək bal toplayıb. Bu isə iştirakçıların 58,8 faizinin sağlam həyat tərzi davranışlarına riayət etdiyini göstərib.

Qeyd edək ki, İSİM tərəfindən aparılan bu sorğuların nəticələri hazırda təhlil edilərək analiz olunur və əhalinin sağlamlığının qorunması və müdafiəsi istiqamətində müxtəlif proqramlarda istifadəsi nəzərdə tutulur.

# «Böyük Qayıdış»a sağlamlıq dəstəyi

## Ağdamın balaca sakinləri həkim müayinələrindən keçirilib



**«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyinin K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu tərəfindən Ağdam rayonunda uşaqlar üçün kompleks səyyar tibbi müayinələr təşkil olunub.**

Tədbirin əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə yaşayan uşaqların sağlamlığının qorunması, vaxtında diaqnostika və profilaktika tədbirlərinin aparılması, habelə regionda səhiyyə xidmətlərinin əlçatanlığının artırılmasıdır.

Ağdam rayonunda ümumilikdə 200-ə yaxın uşaq Pediatriya İnstitutunun həkim heyəti tərəfindən kompleks müayinələrdən keçirilib. Müayinələr pediatr, uşaq kardioloqu, nevroloq, otorinolarinqoloq, oftalmoloq, ultrasəs müayinəsi (USM) həkimi və digər ixtisaslı həkimlər tərəfindən aparılıb. Uşaqlar ümumi kliniki müayinədən keçirilib, antropometrik ölçülər götürülüb. Qarın boşluğu orqanlarının USM, ürəyin USM (exokardioqrafiya), görmə və eşitmə müayinələri, nevroloji statusun qiymətləndirilməsi həyata keçirilib:

Səhiyyə Nazirliyi və institut tərəfindən həyata keçirilən bu tədbir «Böyük Qayıdış» prosesinin səhiyyə komponentinin gücləndirilməsinə xidmət edir və gələcəkdə digər rayonlarda da analoji aksiyaların keçirilməsi nəzərdə tutulur.

## Səhiyyə Nazirliyi Füzulidə qadınlar və yenidoğulmuşlar üçün səyyar tibbi aksiya təşkil edib

**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində yerli əhali arasında sağlam həyat tərzinin təşviqi, həmçinin səyyar tibbi müayinə və maarifləndirmə aksiyalarının keçirilməsini davam etdirir.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu qəbildən olan növbəti aksiya Füzuli rayonunda təşkil olunub. Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun mama-ginekoloq, neonatoloq və orta tibb işçilərindən ibarət heyəti tərəfindən qadınlar üçün kompleks tibbi müayinələr aparılıb, eyni zamanda, maarifləndirici tədbirlər keçirilib.

«Böyük Qayıdış» Proqramı çərçivəsində təşkil olunan səyyar tibbi aksiyanın əsas məqsədi əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması, ana və uşaq sağlamlığının qorunması, yenidoğulmuşların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi, yeniyetmələrin reproduktiv sağlamlığının təmin edilməsi, bu istiqamətdə profilaktik tədbirlərin gücləndirilməsi və əhalinin tibbi biliklərinin artırılmasıdır.

Aksiya çərçivəsində institutun həkimləri qadınlarda tibbi müayinələr aparıblar. Eyni zamanda, yenidoğulmuşlara tibbi baxış keçirilib, analar və yeniyetmələr üçün fərdi konsultasiyalar təqdim olunub. Neonatoloqlar tərəfindən yenidoğulmuşların sağlamlıq göstəriciləri qiymətləndirilib, analar üçün neonatal skrininqin əhəmiyyəti, yenidoğulmuşlara düzgün qulluq, qidalanma və ilkin baxım mövzularında maarifləndirici təlimlər təşkil olunub. Tədbirdə 140-a yaxın yeniyetmə yaş qrupuna aid olan qızlar və onların valideynləri iştirak ediblər.

## Qrup diyet proqramlarından istifadə edənlərə xəbərdarlıq



**Son illərdə qrup diyet proqramları geniş yayılıb, xüsusilə sosial şəbəkələr, fitness mərkəzləri və onlayn platformalar vasitəsilə populyarlıq qazanıb. Bu proqramlar bəzən arıqlamağa kömək etsə də, təhlükəsiz deyil.**

Bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi «Instagram» hesabında keçirilən canlı yayım zamanı nazirliyin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.

Onun sözlərinə görə, bu proqramların əsas məqsədi insanların eyni qida rejiminə əməl etməklə çəkilərinin azalmasını və ya sağlam həyat tərzinə keçidini təmin etməkdir. Qastroenteroloq belə proqramların müsbət və mənfi tərəflərindən danışıb: «Qrup daxilində motivasiya və nəzarət hissi bəzi insanlar üçün müsbət təsir göstərsə də, elmi baxımdan, bu cür standartlaşdırılmış yanaşmalar hər bir fərd üçün təhlükəsiz və uyğun hesab edilə bilməz. İnsan orqanizmi fərdi xüsusiyyətlərə malik mürəkkəb bir sistemdir. Yaş, cins, genetik faktorlar, maddələr mübadiləsinin sürəti, fiziki aktivlik səviyyəsi, hormonal vəziyyət və mövcud xroniki xəstəliklər gündəlik qida ehtiyacını müəyyən edən əsas amillərdir. Qrup diyet proqramlarında isə adətən bu fərdi fərqlər nəzərə alınmır və hamı üçün eyni kalorili, eyni tərkibli qida planı tətbiq olunur».

Mütəxəssis-ekspert bildirib ki, nəticədə, bəzi insanlarda enerji, yaxud zülal çatışmazlığı, eləcə də vitaminlərin və minerallların çatışmaması baş verə bilər.

Emin Məmmədov xəbərdarlıq edib ki, balanslaşdırılmamış, birtərəfli diyetlərin digər fəsadları da ola bilər. Buna görə diyetlərin hər bir pasiyent üçün fərdi seçilməsi məsləhətdir.

## AEM əməkdaşları üçün EİT üzrə təlim keçirildi

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzində (AEM) qurumun əməkdaşları üçün «EİT nədir?» təlim kursunun birinci mərhələsi keçirilib. Təlimi AEM-in Etibarlı İstehsalat Təcrübəsi (EİT) şöbəsinin müdiri Həmid Qurbanov aparıb.**

EİT-in əsas prinsiplərinə, keyfiyyətin idarə edilməsi prinsiplərinə, tənzimləyici tələblərə və onların əczaçılıq fəaliyyətində praktik tətbiqinə həsr olunmuş təlim kursu dinləyicilərə tənzimləyici tələblərinin icmalı və yüksək keyfiyyətli mədəniyyətin qorunması üçün personalın vəzifələri ilə tanış olmaq imkanı yaradıb. Təlimin birinci mərhələsində hazır məhsullar üçün EİT tələblərinə giriş, EİT-in məqsədi, prinsipləri və əhəmiyyəti, istifadəyə hazır dərman məhsulları üçün EİT elementləri, EİT çərçivəsində sənədləşdirmə, qeydiyyat və audit tələbləri mövzuları əhatə edilib.

Peşəkar səriştələri gücləndirmək, beynəlxalq EİT standartlarına uyğunluğu təmin etmək, AEM-də keyfiyyət və təhlükəsizlik proseslərinin davamlı təkmilləşdirilməsini dəstəkləmək məqsədi daşıyan tədbirin sonunda iştirakçıların çoxsaylı sualları cavablandırılıb.






# Servikal xərçəng üzrə beynəlxalq tədbir keçirilib






**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi və Azərbaycan Onkoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə Türkiyənin İstanbul şəhərində ilk dəfə «Servikal xərçəng üçün skrininq testləri, HPV peyvəndləmə, CİN 1, 2, 3 və kolposkopiya» mövzusunda Beynəlxalq dəyirmi masa müzakirəsi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzinin Şişönü xəstəliklərin diaqnostikası və müalicə şöbəsinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Sevinc Rəhimzadənin rəhbərliyi ilə şöbənin həkim kollektivinin iştirak etdiyi tədbirdə Türkiyənin aparıcı onkoginekoloqları Murat Gültekin, Mete Güngör və Murat Dede ilə birgə elmi müzakirələr aparılıb.

Dəyirmi masa çərçivəsində servikal xərçəngin erkən diaqnostikası, effektiv skrininq strategiyaları, HPV peyvəndləmə proqramlarının tətbiqi, CİN 1, 2, 3 mərhələlərinin idarə olunması və kolposkopiyanın müasir yanaşmaları üzrə beynəlxalq təcrübələr təqdim edilib. Yüksək elmi səviyyədə, interaktiv formatda təşkil olunmuş tədbirdə klinik protokollar və praktik yanaşmalar ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycandan 500-ə yaxın həkim və səhiyyə mütəxəssisi zoom platforması vasitəsilə tədbirə canlı qoşularaq müzakirələri izləyib, Türkiyədən dəvət olunmuş professor və mütəxəssislərə birbaşa suallarını ünvanlayıblar.

Dəyirmi masa müzakirəsi Azərbaycanda dövlət səviyyəsində planlaşdırılan HPV skrininq və peyvəndləmə proqramının elmi əsaslarının formalaşdırılması məqsədi daşıyıb və həmin dövlət layihəsinin ilkin mərhələsidir.

# Tibbi aksiyaya yekun vuruldu




**«PAŞA Holding» və Səhiyyə Nazirliyinin birgə təşəbbüsü olan «Erkən müayinə can qurtarır!» aksiyasının 3-cü mərhələsi yekunlaşıb. Bununla bağlı bir il ərzində 30 rayonda insanları müayinə edən həkimlərə və tərəfdaşlara təşəkkür gecəsi keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, gecədə bir ilin nəticələri haqqında danışılıb. Həkimlər təəssüratlarını bölüşüblər. Layihədə əməyi olan həkimlər, eyni zamanda, layihənin reallaşmasında rolu olan hər kəs təşəkkürnamə ilə təltif edilib.

Qeyd edək ki, ötən ilin mart ayında Göyçay rayonunda start götürən «Erkən müayinə can qurtarır!» aksiyası çərçivəsində Azərbaycanın 30 bölgəsində səyyar müayinələr təşkil olunub, insanlar erkən müayinələrə təşviq ediliblər. Bu dönəmdə 18 374 nəfər müayinə olunub, 3 653 nəfərdə ilkin şəkər aşkarlanıb və onlar qlükometr cihazı ilə təmin ediliblər. Daha ciddi sağlamlıq problemi olan 158 nəfər müvafiq həkimlərə və qurumlara yönəldilib, müalicə olunaraq sağalmaları üçün tədbirlər görülüb.

# Azərbaycan səhiyyə tarixinin canlı yaddaşı

**Azərbaycan Təbabəti Muzeyinin yaradılmasının 40 illiyi münasibətilə tədbir keçirilib.**





Tədbirdə Səhiyyə Nazirliyi Azərbaycan Təbabəti Muzeyi, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Tibb Universitetinin Respublika Dövlət Elmi Tibb Kitabxanasının nümayəndələru iştirak ediblər.

Azərbaycan Təbabəti Muzeyi 1984-cü ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin 169 nömrəli əmrinə əsasən yaradılınb, rəsmi açılışı isə 29 yanvar 1986-cı ildə baş tutub. Muzeyin yaranması, fəaliyyəti və inkişafı ölkəmizdə tibbin tarixi ilə bilavasitə bağlıdır.







Azərbaycan Təbabəti Muzeyi ziyarətçilərdə Azərbaycanın səhiyyə tarixinə maraq və hörmət hissi formalaşdırır. Muzeyin qorunması və gələcək nəsillərə ötürülməsi səhiyyə tarixi baxımından mühüm vəzifədir.

Muzey xalqımızın mədəni irsinin ayrılmaz tərkib hissəsi kimi, qədim dövrlərdən bu günə qədər ölkəmizdə tibb və səhiyyənin inkişaf tarixini, eyni zamanda, Azərbaycan təbabət alimlərinin elmi nailiyyətlərini işıqlandırmaq və nümayiş etdirmək məqsədi ilə fəaliyyət göstərir.

# Mövsümi qrip:
## yoluxma riski, peyvənd və düzgün müalicə



**Payız-qış mövsümündə kəskin respirator virus infeksiyaları, xüsusilə də qrip xəstəliyi əhali arasında geniş yayılaraq həm uşaqlar, həm də böyüklər üçün sağlamlıq riski yaradır. Qrip virusu barədə cəmiyyətin düzgün və vaxtında məlumatlandırılması xüsusi əhəmiyyət daşıyır. Səhiyyə Nazirliyi V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun infeksionisti Arzu Pənahova nazirliyin mətbuat xidmətinə qripin əlamətləri, hansı yaş qruplarının daha çox risk altında olması, xəstəlikdən qorunma yolları, peyvəndlənmənin rolu və həkim məsləhəti olmadan dərman qəbulunun fəsadları ilə bağlı müsahibə verib.**

**- Arzu xanım, qrip virusu nədir, əlamətləri və simptomları hansılardır?**

- Tibbi dildə influenza virusu adlanan qrip virusu əsasən yuxarı və aşağı tənəffüs yollarını zədələyən, yüksək yoluxduruculuğa malik kəskin virus infeksiyasıdır. Bu viruslar «Orthomyxoviridae» ailəsinə aiddir, əsasən A, B və C tiplərinə bölünür. İnsanlarda mövsümi epidemiyalara səbəb olan əsas törədicilər A və B tipli qrip viruslarıdır. Qrip virusunun ən diqqətçəkən xüsusiyyəti isə tez-tez mutasiyaya uğramasıdır. Məhz bu dəyişkənlik səbəbindən hər il payız-qış mövsümündə qrip yenidən yayılır və əvvəlki immunitet xəstəliyin qarşısını tam ala bilmir.

Qrip virusu əsasən hava-damcı yolu ilə yayılır. Yoluxmuş şəxs öskürərkən, asqırarkən və ya danışarkən virusu ətrafa yayır. Bundan əlavə, virusla çirklənmiş səthlərlə təmasdan sonra əllə burun, ağız və ya gözlərə toxunmaq da yoluxmaya səbəb ola bilər.

Xəstəliyin inkubasiya dövrü adətən 1-4 gün təşkil edir. Əlamətlər üzə çıxmazdan bir gün əvvəl xəstə artıq yoluxdurucu ola bilər. Yoluxduruculuq adətən 5-7 gün davam edir. Uşaqlarda və immun sistemi zəif olanlarda bu müddət daha uzun ola bilər.

Qripin əlamətləri adətən kəskin və qəfil başlanğıcla özünü göstərir. Xəstəliyin ən xarakterik əlaməti yüksək hərarətdir. Bədən temperaturu çox vaxt 38-40°C-yə qədər yüksələ bilər. Hərarətlə yanaşı, ümumi halsızlıq, güclü yorğunluq hissi xəstələr tərəfindən ən çox şikayət edilən əlamətlərdəndir. Əzələ və oynaqlarda ağrılar qrip üçün çox tipikdir və bəzən gündəlik hərəkətləri belə çətinləşdirir.

Qrip zamanı başağrısı adətən güclü və davamlı olur, xüsusilə alın və göz arxası nahiyəsində hiss edilir. Tənəffüs yollarına aid əlamətlərə quru və tutmaşəkilli öskürək, boğazda yanma və ağrı, burun axıntısı və ya tutulması daxildir. Xəstələrdə tez-tez üşütmə, titrəmə və soyuqluq hissi müşahidə olunur.

Bəzi hallarda qrip yalnız tənəffüs yolları ilə məhdudlaşmır. İştahasızlıq, ürəkbulanma, qusma və qarın ağrısı kimi əlamətlər, xüsusilə uşaqlarda daha çox rast gəlinir. Həmçinin gözlərdə qızartı, sulanma və işığa həssaslıq, nadir hallarda isə səs batması müşahidə olunur. Xəstəlik dövründə diqqət və yaddaş zəifləməsi, yuxululuq yarana bilər.

Qripin əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, o, adi soyuqdəymə ilə müqayisədə daha ağır keçir, əlamətlər qəfil başlayır və ümumi vəziyyəti ciddi şəkildə pisləşdirir. Xüsusilə uşaqlarda, yaşlılarda, hamilə qadınlarda və xroniki xəstəlikləri olan şəxslərdə qrip daha ağır gedişata malik olur və ciddi ağırlaşmalara səbəb ola bilər.

Bu səbəbdən qrip əlamətləri başladıqda vaxtında həkimə müraciət etmək, özünütəcrid, düzgün müalicə tədbirlərinə başlamaq xəstəliyin yayılmasının və ağırlaşmaların qarşısının alınmasında mühüm rol oynayır.

**- Hansı yaş qrupunda qripə yoluxma hallarına daha çox rast gəlinir?**

- Qrip elə bir infeksiyadır ki, yalnız müəyyən yaş qrupuna məxsus deyil və həyatın istənilən dövründə rast gəlinə bilər. Bununla belə, epidemioloji müşahidələr göstərir ki, bütün yaş qrupları arasında yoluxma tezliyi eyni deyil və bəzi qruplar həm daha tez yoluxur, həm də xəstəliyi daha ağır keçirir.

Ən yüksək yoluxma göstəriciləri adətən uşaqlar arasında, xüsusilə məktəbəqədər yaş dövründə (0-5 yaş) və məktəb yaşlı uşaqlarda (6-17 yaş) qeydə alınır. Bunun əsas səbəbi isə uşaqların kollektiv mühitdə, o cümlədən uşaq bağçalarında və məktəblərdə sıx təmasda olmaları, gigiyenik qaydalara riayət edə bilməmələri və immun sistemlərinin hələ tam formalaşmamasıdır. Uşaqlar qrip virusuna daha asanlıqla yoluxur, eyni zamanda, virusun cəmiyyətdə yayılmasında əsas «ötürücü zəncir» rolunu oynayırlar.



Yaşlı insanlar, xüsusilə 65 yaşdan yuxarı şəxslər qripə yoluxma baxımından deyil, daha çox ağır gediş və fəsadlar riski baxımından ön plandadır. Bu yaş qrupunda qripin daha ağır keçməsinin səbəbi immun sisteminin zəifləməsi, xroniki ürək-damar, ağciyər, şəkərli diabet və digər yanaşı xəstəliklərin mövcudluğu ilə əlaqədardır. Yaşlılarda qrip pnevmoniya, xroniki xəstəliklərin kəskinləşməsi, ürək və tənəffüs çatışmazlığı kimi ciddi ağırlaşmalarla müşayiət oluna bilər.

Hamilə qadınlar ayrıca risk qrupuna daxildir. Hamiləlik dövründə immun sistemində baş verən fizioloji dəyişikliklər qadınların infeksiyalara qarşı həssaslığını artırır. Bu səbəbdən hamilə qadınlarda qrip həm ana, həm də döl üçün təhlükəli ola bilər və daha ciddi nəzarət tələb edir.

Gənclər və orta yaşlı insanlar adətən qripi daha yüngül keçirirlər, lakin onların yoluxma riski həyat tərzi ilə birbaşa əlaqəlidir. Xüsusilə, ictimai nəqliyyatdan tez-tez istifadə edənlər, ofis və kollektiv mühitdə çalışanlar, təhsil, səhiyyə, xidmət sektorunda işləyən şəxslər virusla daha çox təmasda olduqları üçün yoluxma ehtimalı yüksək olur.

Bundan əlavə, istənilən yaşda olan, lakin xroniki xəstəlikləri və ya immun çatışmazlığı olan şəxslər qripə daha tez yoluxa və xəstəliyi daha ağır keçirə bilərlər. Buraya astma, xroniki ağciyər, ürək, böyrək və qaraciyər xəstəlikləri, şəkərli diabet və immunosupressiv müalicə alan şəxslər daxildir.

Bu səbəbdən risk qruplarına aid şəxslərin yoluxmadan qorunması, xüsusilə də vaxtında peyvənd olunması və profilaktik tədbirlərə əməl etməsi qripin yayılmasının qarşısını almaqda əsas rol oynayır.

**- Qripə yoluxmamaq üçün insanlar daha çox nəyə diqqət etməlidirlər?**

- Qripdən qorunma təkcə fərdi məsuliyyət deyil, eyni zamanda, ictimai sağlamlığın qorunması deməkdir. Qrip hava-damcı yolu ilə çox sürətlə yayıldığı üçün insanlar gündəlik həyatlarında bir sıra sadə, lakin effektiv qaydalara diqqət etməlidirlər.

Ən vacib qoruyucu tədbirlərdən biri vaxtında peyvənd olunmaqdır. Qrip virusu tez-tez dəyişdiyi üçün hər il mövsümə uyğun yenilənmiş peyvəndlər hazırlanır. Xüsusilə uşaqlar, yaşlılar, hamilə qadınlar, xroniki xəstəliyi və immun sistemi zəif olan şəxslər üçün peyvənd qripin ağır keçməsinin və fəsadların qarşısının alınmasında əsas rol oynayır.

Gündəlik gigiyena qaydalarına riayət etmək qripdən qorunmada mühüm əhəmiyyət daşıyır. Əllərin sabunla tez-tez yuyulması, xüsusilə ictimai yerlərdən sonra, virusun orqanizmə daxil olmasının qarşısını alır. Əllər yuyulmadıqda gözlərə, buruna və ağıza toxunmaqdan çəkinmək lazımdır. Bu, virusun bədənə keçməsinin ən geniş yayılmış yollarından biridir.

Qripin yayılmasının qarşısını almaq üçün maskadan düzgün istifadə etmək, xüsusilə, əlamətləri olan şəxslər üçün vacibdir. Öskürək və asqırma zamanı ağız və burnun salfetlə və ya qolun dirsək oynağının içəri səthi ilə örtülməsi respirator gigiyenanın əsas qaydalarındandır. İstifadə olunmuş salfetlər dərhal atılmalı və əllər təmizlənməlidir.

İnsanların kütləvi toplaşdığı, qapalı, havalandırılması zəif olan məkanlardan mümkün qədər uzaq durmaq tövsiyə olunur. Xüsusilə, payız-qış mövsümündə ictimai nəqliyyatda, ticarət mərkəzlərində və tədbirlərdə uzun müddət qalmaq yoluxma riskini artırır. Mümkün olduqda sosial məsafənin qorunması önəmlidir.

Qrip əlamətləri olan şəxslərin evdə qalması və özünü təcrid etməsi həm onların tez sağalması, həm də virusun başqalarına ötürülməsinin qarşısının alınması baxımından vacibdir. Hərarət, boğaz ağrısı, öskürək və halsızlıq kimi əlamətlər olduqda ictimai yerlərə getmək məsləhət görülmür.

Orqanizmin ümumi müqavimətini gücləndirmək də qorunmada mühüm rol oynayır. Düzgün və balanslı qidalanma, kifayət qədər maye qəbulu, vitamin və minerallarla zəngin qidalar, normal yuxu rejimi və fiziki aktivlik immun sisteminin güclənməsinə kömək edir. Xroniki stress və yuxusuzluq isə immun müdafiəni zəiflədir və yoluxma riskini artırır.

Nəticə olaraq, qripdən qorunmanın əsas prinsipi peyvənd, gigiyena, məsuliyyətli davranış və sağlam həyat tərzinin birgə tətbiqidir. Bu tədbirlərə əməl etməklə həm öz sağlamlığımızı, həm də ətrafımızdakı insanların sağlamlığını qorumaq mümkündür.

**- Həkim məsləhəti olmadan qəbul edilən dərman və antibiotiklərin sağlamlığa hansı mənfi təsirləri var?**

- Həkim məsləhəti olmadan dərmanların, xüsusilə də antibiotiklərin qəbul edilməsi ilk baxışdan «zərərsiz» bir addım kimi görünə bilər. Amma tibbi baxımdan bu davranış sağlamlıq üçün ciddi və bəzən geridönməz fəsadlara yol aça bilər. Burada əsas problem ondan ibarətdir ki, dərmanlar «ümumi təsirli» deyil, konkret diaqnoz, doza və müddət tələb edən vasitələrdir.

Ən böyük risklərdən biri antibiotiklərə qarşı davamlılığın (rezistentliyin) yaranmasıdır. Antibiotik həkim göstərişi olmadan və ya düzgün olmayan dozada qəbul edildikdə bakteriyaları tam məhv etmir, əksinə, onlara uyğunlaşır. Nəticədə, gələcəkdə eyni infeksiya zamanı həmin antibiotik artıq təsir etmir. Bu, təkcə bir insan üçün deyil, cəmiyyət üçün də təhlükəlidir, çünki davamlı bakteriyalar yayılır və müalicəsi daha çətin olan infeksiyalar meydana çıxır.

Antibiotiklərin başqa bir mühüm mənfi təsiri orqanizmin normal mikroflorasını pozmasıdır. İnsan bədənində, xüsusilə bağırsaqlarda, immun sisteminin düzgün işləməsi üçün vacib olan faydalı bakteriyalar yaşayır. Antibiotiklər isə zərərli və faydalı bakteriyalar arasında fərq qoymur. Nəticədə, ishal, qarın ağrısı, köp, göbələk infeksiyaları və immun zəiflik yarana bilər. Uzunmüddətli və nəzarətsiz antibiotik qəbulu bağırsaq mikrobiotasını ciddi şəkildə zədələyir.

Həkim məsləhəti olmadan qəbul edilən dərmanlar qaraciyər və böyrəklərə toksik təsir göstərə bilər. Bir çox dərmanlar məhz bu orqanlar vasitəsilə parçalanır və orqanizmdən xaric olunur.

*(Ardı səhifə 11-də)*

# Qorxudan fobiyaya keçid və ondan necə qurtulmaq olar



**Hər birimizin həyatında qorxular olur - qaranlıqdan, hündürlükdən, imtahandan... Bəzən bu qorxular o dərəcədə güclənir ki, gündəlik həyatımızı, sosial münasibətlərimizi və hətta evdən çıxmağımızı belə çətinləşdirir. Məhz bu zaman adi qorxu fobiyaya çevrilir.**

Səhiyyə Naziriyi Sanator-Kurort Reabilitasiya Mərkəzinin psixoloqu Fidan Məmmədova qorxu ilə fobiya arasındakı fərq, fobiyaların necə formalaşması, genetik və ətraf mühit faktorlarının rolu, ən çox rast gələnən növləri, eləcə də uşaqlar və böyüklərdə müalicə üsulları barədə nazirliyin mətbuat xidmətinin suallarını cavablandırıb.

**- Fidan xanım, fobiya nədir və adi qorxudan nə ilə fərqlənir?**

- Öncə onu deyim ki, xarici təhlükələrə qarşı göstərdiyimiz emosional reaksiyamıza qorxu deyilir. Fobiyalar da bu qorxunun bir versiyasıdır. Fobiyası olan insanlara fobik deyilir. Bu, insanlarda tez-tez rast gələnən narahatlıq pozuntularındandır. Qorxu bir növ xəbərdaredici mexanizmdir. Şəxsin rahatlaşa bilməməsi nəticəsində qorxu və narahatlıq get-gedə artır və bu vəziyyət təşvişə yol aça bilər. Təşviş şəxsin gündəlik həyatına mənfi təsir göstərir. Beləliklə, qorxu və xəbərdarlıq mexanizmi olaraq adlandırdığımız qorxu fobiyaya çevrilir. Fobiya qorxudan formalaşır - biz qorxularımızı azaltmadıqca, onlar böyüyür və fobiyaya keçir.

Bəzən qorxu ilə fobiyanı qarışdırırlar. Qorxu öhdəsindən gəlmək mümkün olan, təcrübə əsasında qazanılmış bir hissdir. Fobiya isə aradan qaldırılması qeyri-mümkün olan qorxu hissidir. Məsələn, insan hansısa bir heyvandan qorxur. Həmin heyvanın yanından qorxaraq da olsa, qaçırsa, bu qorxudur. Əgər insan həmin heyvanı görəndə yolunu dəyişir, bir müddətdən sonra evdən çıxmamağa başlayır, sosial həyatından təcrid olunursa, bu halda artıq qorxu fobiyaya çevrilib.

**- Bu çevrilmənin səbəbi nədir?**

- Fobiyanın ən geniş yayılmış yaranma səbəbləri arasında genetik və ətraf mühit faktorlarını göstərmək olar. Fobik pozuntular valideynləri xasiyyətcə narahat və həyəcanlı olan uşaqların ailələrində daha çox baş verir. Onlar tərbiyə prosesində uşağa öz qorxu və həyəcanını ötürürlər. Zəngin təxəyyülə malik, emosional cəhətdən həssas olanlar fobiyaya daha çox meyillidirlər. Bundan başqa, xroniki sağlamlıq problemləri yaşayan, travma keçirmiş və ya uzun müddətli stress altında olan şəxslərdə də müxtəlif fobiyalar ortaya çıxa bilər.

**- Fobiyalar hansı yaş dövrlərinə xasdır və nə kimi əlamətlərlə özünü göstərir?**

- Fobiyalar hər yaş dövründə müşahidə edilə bilər. Maraqlıdır ki, yaşlılarda nadir hallarda aşkar olunur - ehtimal ki, həyata baxışın sadələşməsi qorxuların aradan qalxması ilə nəticələnir. Daha çox uşaqlıq və yeniyetməlik dövrlərində rast gəlinir. Müalicə olunmadıqda bu fobiyalar 45-50 yaşlarına qədər davam edə bilər. Kişilərə nisbətən qadınlarda daha çox müşahidə edilir.

Əlamətləri arasında titrəmə, soyuq tər, ürək döyüntüsü, üzün qızarması, üzdə qaşınma və ya yanma hissi, nəfəs darlığı, udqunmada çətinlik, ağızda quruluq, bayılma, boğulma hissi, əsəb krizi, şok, şüur itkisi, mədə bulantısı və s. kimi hallar var.

**- Hansı fobiyalar var?**

- Fobiyaların 300-dən artıq növü mövcuddur. Onlar 3 qrupa bölünür: fəza (məkan) fobiyaları, sosial fobiyalar və spesifik fobiyalar.

Fəza fobiyalarına aqorafobiya (küçə, meydan, bazar, teatr kimi ictimai yerlərdən qorxma) və klaustrofobiya (qapalı məkanlar, lift, tunel kimi yerlərdən qorxma) daxildir. Aqorafobiya ən çox qadınlarda və gənc yaşlarda müşahidə olunur. Klaustrofobiyada insanlar nəfəs ala bilməməkdən və ya orada ömürlük qalmaqdan qorxurlar.

Sosial fobiyası olanlar ictimai yerlərdə çıxış etməkdən, auditoriya qarşısında danışmaqdan, başqaları qarşısında gülünc vəziyyətə düşməkdən qorxurlar. Utancaqlıq, alçalmaq duyğusu, başqaları tərəfindən pis qəbul olunmaqdan qorxmaq sosial fobiyalardır. Çox vaxt yeniyetməlikdən başlayır, bullinqə məruz qalmış şəxslərdə daha çox olur. Əlamətləri üzün qızarması, əllərin əsməsi, tərləmə, titrəmədir.

**- Spesifik fobiyalar dedikdə hansılar nəzərdə tutulur?**

- Spesifik fobiyalar müəyyən bir vəziyyətə, obyektə və ya fəaliyyətə həddindən artıq qorxu və narahatlıqla reaksiya verməkdir. Spesifik fobiyalar heyvan (it, pişik, hörümçək, siçan, ilan və s.), təbii mühit (yüksəklik - akrofobiya, su - hidrofobiya) və tibbi fobiyalar (qan - hemofobiya, iynə, həkim və ya diş həkimi qorxusu) kateqoriyalarına bölünür.

**- Fobiyanın müalicəsi varmı?**

- Bəli, fobiyalar müalicə oluna bilər. Müalicə həm dərmanla, həm də psixoterapiya ilə aparılır. Təkcə dərman effektiv nəticə vermir. Ən yaxşı nəticə hər iki üsulun birgə tətbiqində əldə olunur.

**- Uşaqlarda və böyüklərdə fobiyalar özünü necə büruzə verir və aradan qaldırmaq üçün hansı üsullardan istifadə olunur?**

- Uşaqlarda valideynlərin tərbiyə üsulundan çox şey asılıdır. Həddindən artıq qayğı, qəddarlıq və ya diqqətsizlik fobiyaya səbəb ola bilər. Məsələn, «Heyvanlara əl dəymə, infeksiya keçər, dişləyər» kimi ifadələr uşaqda heyvan fobiyası yarada bilər. Pis qiymətə həddindən artıq mənfi reaksiya məktəb fobiyasına səbəb olur. Qorxunc filmlər, qan səhnələri də təsir edir.

Uşaqlarda koqnitiv-davranış terapiyası ilə yanaşı, qum terapiyası və nağıl terapiyası effektivdir.

Böyüklərdə əsas üsul psixoterapiyadır. Koqnitiv-davranış, geştalt terapiya, relaksasiya, autotreninq üsulları var. Müalicə fərdi seçilir. Əsas məqsəd pasiyenti fobiyası ilə üz-üzə gətirmək, qorxusu ilə üzləşməsini təmin etməkdir.

**- Bu gün daha çox müşahidə edilən fobiyalar hansılardır?**

- Bütün yuxarıda qeyd etdiklərimizə tez-tez rast gəlinir. Bundan əlavə, obezofobiya (kökəlməkdən qorxma), ablutofobiya (yuyunmaqdan qorxma), agirofobiya (piyada keçidlərindən qorxma), anatidaefobiya (ördəklərdən və onların təqibindən qorxma) kimi maraqlı növlər də var. Bunlar çox vaxt travma nəticəsində yaranır.

**- Uşağında fobiyası olan valideynlərə hansı məsləhətləri verərdiniz?**

- Əvvəlcə, fobiyanın nə vaxt və hansı hadisədən başladığını düşünün. Səbəbi tapın, çünki fobiyanın altında yatan səbəb var. Uşağı qınamayın, anlamağa çalışın. Qorxu yaradan vəziyyətlə tədricən üz-üzə gətirin: məlumat verin, şəkillər göstərin, özünüz toxunun, sonra uşağın toxunmasına kömək edin. Sadə tapşırıqlardan başlayın. Effektiv ünsiyyət və psixoterapiya ilə uşağınız fobiyadan qurtula bilər.

# Mövsümi qrip:
## yoluxma riski, peyvənd və düzgün müalicə

*(Əvvəli səfəhifə 10-da)*

Dozanın düzgün seçilməməsi və ya lazımsız dərman qəbulu qaraciyər fermentlərinin yüksəlməsinə, böyrək funksiyasının pozulmasına və hətta dərman mənşəli hepatitə səbəb ola bilər.

Digər mühüm risk yan təsirlər və allergik reaksiyalardır. Bəzi insanlar müəyyən dərmanlara qarşı həssas ola bilərlər. Həkim nəzarəti olmadan qəbul edilən dərmanlar dəri səpgisi, qaşınma, şişkinlik, tənəffüs çətinliyi və ağır hallarda anafilaktik şok kimi həyati təhlükəli vəziyyətlər yarada bilər. Xüsusilə antibiotiklər və ağrıkəsicilər bu baxımdan risklidir.

Özbaşına dərman qəbulu xəstəliyin əlamətlərini müvəqqəti gizlədə, lakin əsas səbəbi aradan qaldırmaya bilər. Bu isə düzgün diaqnozun gecikməsinə, xəstəliyin ağırlaşmasına və daha mürəkkəb müalicəyə ehtiyac yaranmasına səbəb olur.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, virus xəstəliklərində antibiotiklərin heç bir müalicəvi təsiri yoxdur. Qrip, soyuqdəymə və digər respirator virus infeksiyalarında antibiotik qəbulu nəinki faydasızdır, hətta zərərlidir. Bu həm immun sistemini zəiflədir, həm də gələcəkdə həqiqətən antibiotikə ehtiyac olduqda onun təsirsiz qalmasına səbəb olur.

Uşaqlarda, yaşlılarda, hamilə qadınlarda və xroniki xəstəlikləri olan şəxslərdə özbaşına dərman qəbulu xüsusilə təhlükəlidir. Bu qruplarda dərmanların təsiri daha fərqli ola bilər və ağır fəsadlar riski daha yüksəkdir.

Nəticə olaraq deyim ki, ümumilikdə dərmanlar və konkret olaraq antibiotiklər “özbaşına istifadə edilən vasitə” deyil, müalicə alətidir və yalnız həkim tərəfindən düzgün qiymətləndirmədən sonra təyin olunmalıdır. Sağlamlığın qorunmasının ən düzgün yolu simptomlara əsasən deyil, elmi əsaslı tibbi məsləhətə əsaslanaraq hərəkət etməkdir.

**- Mövsümi qripdən qorunmağın yolları hansılardır?**

- Mövsümi qripdən qorunmaq üçün profilaktik tədbirlər gündəlik həyat tərzindən başlayaraq, səhhəti daha davamlı qoruyan strateji addımlara qədər uzanır. Bu tədbirlər arasında qripə qarşı vaxtında peyvənd olunmaq yer alır ki, Səhiyyə Nazirliyi bu mövzuya xüsusi diqqət verir.

Bu mövsüm üçün Səhiyyə Nazirliyi təhlükəsiz və yüksək keyfiyyətli qrip əleyhinə vaksinləri Azərbaycana gətirib və vaksinasiya kampaniyasına ötən ilin oktyabr ayından etibarən başlanılıb. Bu vaksinlər Fransada istehsal olunub və yüksək standartlara cavab verən preparatlardır. Məqsəd qrip virusunun payız-qış mövsümündə yayılmasını azaltmaq və cəmiyyətin sağlamlığını qorumaqdır.

Xüsusilə səhiyyə işçiləri, hamilə qadınlar, 65 və daha yuxarı yaşlı, xroniki xəstəlikləri olan şəxslər üçün peyvənd əsas qoruyucu tədbir sayılır. Bu qruplarda qrip daha ağır gedişata səbəb ola biləcəyinə görə, vaxtında peyvənd olunmaq infeksiyanın qarşısının alınmasında çox vacibdir.

Peyvənd bədənin immun sistemini qrip virusuna qarşı hazırlayır və xəstəliyə yoluxma ehtimalını azaldır. Təcrübədə peyvənd olunmuş şəxslərdə qripin ağırlaşma riski, xəstəxanaya düşmə ehtimalı xeyli aşağı olur. Təkrar mutasiya edən qrip virusuna qarşı hər il yenilənmiş peyvəndlərin tətbiqi immuniteti mövsümə uyğunlaşdırır və qorunmanı gücləndirir. Bu, qrip virusunun dəyişkən təbiətinə qarşı ən effektiv müdafiədir.

Vaksinasiya bütün dövlət tibb müəssisələrində, yaşayış və ya iş yeri üzrə ambulator-poliklinik xidmət göstərən müəssisələrdə pulsuz aparılır. Bu, peyvəndlənmənin əlçatan olması və geniş əhali seqmentinin qorunması üçün vacib bir addımdır.

Qripdən qorunmaq yalnız peyvəndlə məhdudlaşmır. Əllərin tez-tez yuyulması, oxşar virus infeksiyalarında maska istifadəsi, sosial məsafəni qorumaq və xəstə insanlarla yaxın təmasdan çəkinmək kimi gündəlik gigiyena qaydaları da infeksiyanın yayılmasını azaldır. Peyvəndlənmə bu tədbirlərlə birlikdə tətbiq olunduqda qripdən qorunmanın təsiri daha yüksək olur.

Qrip mövsümündə peyvənd strategiyası yalnız fərdi sağlamlığın deyil, ümumi ictimai sağlamlığın da qorunmasına xidmət edən ilk və əsas addımdır.

# Fiziki aktivlik və oturaq həyat tərzi

## *Məktəblərdə bu sahədə rəqəmsal savadlılıq üzrə maarifləndirilmə aparılıb*





**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən Suraxanı rayonu üzrə 79, 140, 208, 226 və 232 nömrəli tam orta məktəblərdə «Fiziki aktivlik və oturaq həyat tərzi. Rəqəmsal savadlılıq» mövzusunda 6-7-8-ci sinif şagirdləri üçün maarifləndirici görüşlər keçirilib.**

İSİM-in Layihələrin əlaqələndirilməsi şöbəsinin mütəxəssisi Elnarə Nuriyeva şagirdlərə fiziki aktivliyin sağlamlığa təsiri, oturaq həyat tərzinin fəsadları, eləcə də rəqəmsal savadlılıq barədə ətraflı məlumat verib.

İştirakçılara İSİM tərəfindən hazırlanmış maarifləndirici çap materialları təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.





## Şərq təbabəti ilə bağlı yeni kitab çapdan çıxıb

**Bu yaxınlarda həkim Şahmar Məmmədovun «Tibbi hicama» adlı kitabı işıq üzü görüb.**

Bu kitab müəllifin ənənəvi təbabətlə bağlı çapdan çıxan üçüncü əsəridir. Bundan əvvəl onun «Akupunktura» və «Hirudoterapiya» adlı iki kitabı da nəşr olunub. Uzun illər boyu Şərq təbabətinin aktual sahələri ilə məşğul olan müəllif əldə etdiyi təcrübəni, gəldiyi qənaətləri bu kitablarda əks etdirib.

«Tibbi hicama» kitabının birinci hissəsində həkim zəli müalicəsi, akupunktura, fitoterapiya və digər xalq təbabəti sahələrindən bəhs edir, onun min illərin sınağından keçərək bu günlərə çatdığını vurğulayır.




Kitabın ikinci hissəsində tibbi hicamanın məqsəd və faydaları, təsir mexanizmi, müxtəlif xəstəliklərdə tətbiqi, cızıqların aparılması qaydası, vakuumlama və təkrar vakuumlama, hicama müalicəsinə əks göstərişlər şərh olunur. Müəllif hicamanı sadəcə bədəndən qan çıxarılması kimi qələmə verənlərə əks arqumentlərlə cavab verir. Kitabda tibbi hicama haqqında elmi tədqiqatlar barədə məlumat verilir, həmin elmi əsərlərdən nümunələr gətirilir. Akupunkturanın bir növü kimi təqdim olunan hicama zamanı akupunktur nöqtələr və onların topoqrafiyası, dəridə cızıqların aparıldığı, bankaların qoyulduğu bölgələr şəkillərlə müfəssəl göstərilir.

Kitab Şərq təbabəti ilə məşğul olan həkimlər, fizioloqlar və s. üçün faydalı ola bilər.

AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

**V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu**

*Parazitar və tropik xəstəliklər üzrə elmi şöbənin Protozoologiya bölməsi:*

Elmi işçi – 1.0

*Ünvan: Mustafa bəy Topçubaşov küçəsi 216, Telefon: 594-78-34*

ELAN

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Analitik Ekspertiza Mərkəzi» publik hüquqi şəxsinin istifadəsində olan MN №2156738, MN №2156739 və MN №2156741 nömrəli «İnzibati xəta haqqında Protokollar» itirildiyi üçün etibarsız hesab edilsin.

«Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ-in istifadəsində olan MN №1263038 nömrəli «İnzibati xəta haqqında Protokol»un surəti itirilmiş hesab edilsin.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Analitik Ekspertiza Mərkəzi» publik hüquqi şəxsinin istifadəsində olan MN №2407102, MN № 2407103 və MN №2407105 nömrəli «İnzibati xəta haqqında Protokollar»ın surətləri itirildiyi üçün etibarsız hesab edilsin.

## Dekabrda 25 aptekdə yoxlama aparılıb

Ötən ilin dekabr ayı ərzində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 25 aptekdə yoxlama həyata keçirilib.

Mərkəzdən verilən məlumata görə, həmin yoxlamalardan 9-u Bakıda, 16-sı isə ölkənin digər şəhər və rayonlarındakı apteklərdə aparılıb.

Aparılmış yoxlamalar nəticəsində 7 aptekdə müxtəlif nöqsanlar aşkarlanıb və həmin hallarla bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə 7 protokol tərtib edilib.




## Başsağlığı

"Tibb qəzeti"nin kollektivi qəzetin əməkdaşı Gülnarə Camala anası

**GÜLZAR XANIMIN**

vəfatından qədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*